# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 11-12 (7571-7572) * 4 may 2020-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Taxıl və dənli bitkilərin yetişməsi və yığımı mövsümündə yanğın təhlükəsizliyi tədbirləri

Ölkə başçısı tərəfindən qəbul edilmiş ardıcıl və məqsədyönlü inkişaf proqramlarının həyata keçirilməsi ilə respublikamızın iqtisadiyyatının dinamik inkişafında ilbəil müsbət nəticələrin əldə edilməsi, milli müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmlənməsində bariz göstəricilərdəndir. Bu inkişafın tərkib hissəsi və prioritetlərindən olan kənd təsərrüfatının genişləndirilməsi, bölgələrdə istehsal və emal müəssisələrinin yaradılması, müasir tələblərə uyğun yeni yolların inşa edilməsi, texnika-parkların yetərli sayda və keyfiyyətdə komplektləşdirilməsi, fermer təsərrüfatlarının, habelə fərdi təsərrüfat sahibkarlığının inkişafına dəstək məqsədilə subsidiyaların ayrılması və s. kimi bir çox tədbirlər həyata keçirilmişdir. Kənd təsərrüfatının ən strateji əmək sahələrindən olan taxılçılığın inkişafı vətənimizin ərzaq təhlükəsizliyinin, habelə taxıl ehtiyatının etibarlı təmin olunmasına xidmət edən sosial-iqtisadi tədbirlərdəndir.

Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçısı tərəfindən mühüm qərarlar qəbul edilmişdir.Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi daim diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir. Qeyd etmək lazımdır ki, taxıl zəmilərinin yanğından etibarlı qorunması, eyni zamanda ölkənin ərzaq təhlükəsizliyinin qorunmasıdır;

Kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının işi deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin, təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmaqla, həm də ümumxalq qayğısıdır.

Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

**Taxıl və dənli bitkilərin yetişməsi və yığımı mövsümündə aşağıdakı yanğın təhlükəsizliyi tələblərinə əməl edilməlidir:**

- işə başlamazdan əvvəl yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə, biçin və məhsul yığımı prosesinə cəlb edilmiş bütün texnikaların yanğın təhlükəsizliyi qaydalarının tələblərinə uyğunluğu hər bir təsərrüfatda təşkil olunmuş xüsusi komissiya tərəfindən Dövlət Yanğın Nəzarəti Xidmətinin yerli qurumlarının əməkdaşlarının iştirakı ilə birgə müayinə edilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır;

- dənli bitkilərin, taxıl və ot məhsullarının yığımına başlamazdan əvvəl mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfat texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitəsi ilə tam təmin etməlidirlər;

- taxıl və dənli bitkilərin yığımında iştrak edənlər yanğın təhlükəsizliyi üzrə təlimatlandırılmadan və bu barədə müvafiq qaydada imza etdirilmədən sahələrə buraxılmamalıdırlar;

- meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır;

-taxıl yetişən zamanı cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə xüsusi keşikçilər ayrılmalıdır;

- taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir;

- taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr məsafədə yerləşdirilməlidir;

-xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır;

-tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində «Siqaret çəkmək yeri» yazılmış lövhə asılmalıdır;

-xüsusi ayrılmış yerlərdən başqa digər yerlərdə siqaret çəkilməsini qadağan etmək məqsədilə zəminin perimetri boyunca, uyğun yerlərdə "Siqaret çəkilməsi qəti qadağandır" yazılmış lövhələr asılmalıdır;

- biçin işi aparılan zaman sahələr taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların böyük sahələrə yayılmasının qarşısını almaq məqsədilə kotanlı traktorlarla təmin edilməlidir;

- yanğın baş verdiyi halda, onun yayılmasının qarşısının alınması məqsədilə, yanan sahənin ətrafı küləyin istiqaməti nəzərə alaraq şumlanmaqla ara məsafəsi yaratmaq lazımdır;

- məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcım söndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır;

- əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şumlama traktorları mütləq qaydada qığılcımsöndürənlərlə təmin edilməlidir;

- mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədi ilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir;

-mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özüyeriyən kənd təsərrüfatı texnikalarının akkumlyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki

zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plasmas borularla mühafizə olunmalıdır;

-taxıl və ot yığımı zamanı kombaynın kənar şəxslər tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikanın sahələrdə saxlanılması qəti qadağandır.

-yığım texnikasının təmiri və sazlama işləri tarladan ən azı 30 metr məsafədə aparılmalıdır;

-biçilmiş ot və taxıl dərhal həmin sahədən kənara daşınmalıdır;

-ot tayaları bir-birindən 20 metr məsafə ilə taxıl zəmilərindən ən azı 30 metr aralıda toplanmalıdır;

-taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanması, hər hansı məqsədlə və heç bir halda açıq oddan istifadə edilməsi qəti qadağandır;

- tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi zəmilərdən və biçilmiş sahələrdən ən azı 100 metr məsafədə müvəqqəti yaradılmış məntəqədə həyata keçirilməlidir;

- texnikalara yanacağın doldurulması mütləq şəkildə mühərriklərin işi dayandırıldıqdan sonra, yalnız yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir;

- gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır;

- yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədilə onların vaxtlı-vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalıdır;

- kombaynların və digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir;

- nasazlığı olan və ya fasilə məqsədilə işçi vəziyyətdə olmayan kombayın və digər texnikalar sahədən kənarlaşdırılmalıdır;

- yanğın zamanı mümkün söndürücü vasitələrdən istifadə etməklə alovu söndürməyə çalışmalı, eyni zamanda "112" və ya "101" qaynar xətlərinə zəng etməklə xəbər verilməlidir;

- sahələrdə yaradılmış tarla düşərgələri telefon rabitə vasitələri ilə təmin edilməlidir;

- biçilmiş sahələrin küləşdən və ot qalıqlarından təmizlənməsi məqsədilə sahənin yandırılması yolverilməzdir.



Bundan əlavə, taxıl zəmilərinin yaşıl rəngdən qızılı rəngə çevrilməsi-taxılın yetişməsi dövründən məhsul yığımının sonuna qədər olan müddətdə tarlaların ətrafında "Taxıl çörək deməkdir", "Bərəkətimizi oddan qoruyaq", "Zəhmətimizin qədrini bilək", "Məhsulun oddan qorunması ümumxalq işidir" və s. məzmunlu təbliğat xarakterli lövhələrin asılması tövsiyə olunur.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hər kəsin Vətən qarşısında müqəddəs və şərəfli əmək borcudur. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir. Böyük el sərvəti olan bu müqəddəs məhsul böyük zəhmət hesabına yetişdirilir.

***Dövlət Yanğın Nəzarəti Xidmətinin Yanğına qarşı Təbliğat Şöbəsi***

# MEŞƏLƏRİ YANĞINDAN QORUYUN!

Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur. Münbit torpaqlarımızın yuyulub getməsinin qarşısının alınmasında, sel daşqınlarının minimuma endirilməsində, tarlaların küləkdən və quraqlıqdan qorunmasında meşələrin müstəsna əhəmiyyəti vardır.

İnsanların həyat və fəaliyyətində mühüm rol oynayan, sözün həqiqi mənasında onların qayğısına qalan meşələrin özünün daim qayğıya ehtiyacı var. Meşələrdən bəhrələnməklə, onun sərvətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur.

Meşələrin məhv olmasının əsas səbəblərindən biri onun xüsusən yay aylarında yanğınlara məruz qalmasıdır. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

### MEŞƏLƏRİN YANĞIN TƏHLÜKƏSİZLİYİ DAİM DİQQƏT MƏRKƏZİNDƏ OLMALIDIR

Birinci növbədə qeyd edilməlidir ki, respublikamızın meşələrində yanğın təhlükəsizliyinin təşkil olunmasında məsuliyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin, onun yerlərdəki strukturlarının üzərinə düşür. Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və bu rejimə riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatının rəhbər işçiləri mütəmadi olaraq yanğınsöndürmə texnikalarının və vasitələrinin, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini yoxlamalı, yanğınsöndürmə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə bağlı işçilərlə təlim məşqləri keçirməlidirlər. Meşə və meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən nöqsanların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, həmçinin yanğınsöndürmə texnikasına və vasitələrinə vaxtlı-vaxtında texniki xidmətin göstərilməsinin təşkil edilməsi də zəruridir.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət etmək məqsədi ilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətini hadisə yerinə çağırmalı, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər.



### MEŞƏ YANĞINLARINA SƏBƏB NƏDİR?

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

### MEŞƏ YANĞINLARININ QARŞISINI ALMAQ ÜÇÜN NƏ ETMƏLİ?

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün hara gəldi atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusilə təhlükəlidir.

Meşələrə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir.

Dövlət meşə torpaq fondunun, habelə meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssisələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir. Meşələrdə yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir.

Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır. Belə ki, meşə materialları yığılan yerlər və yanğına qarşı ara məsafələr yanar materiallardan təmizlənməli, eni 1,4 metrdən az olmayaraq minerallaşdırılmış zolaqlarla haşiyələnməlidir.

Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə mühafizəsi və Bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tullantıların yandırılması da bütün hallarda həmin təşkilatla razılaşdırılmalıdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, meşədə yanğınların baş verməsinə şərait yaradan əsas səbəblərdən biri tonqallardır. Bunu nəzərə alaraq tonqallarla əlaqədar vətəndaşlara meşələrdə yanğın təhlükəsizliyini təmin etmək məqsədilə bəzi tövsiyyələri verməyi məqsədəuyğun sayırıq. Birinci növbədə qeyd etmək lazımdır ki, tonqal yandırılarkən bütün təhlükəsizlik qaydalarına əməl etmək vacibdir. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqal qalamaq üçün əvvəlcədən yer hazırlamaq və yaxud da köhnə, qalanmış tonqalın yerindən istifadə etmək lazımdır. Tonqal qalamaq üçün ilk növbədə ağaclardan xeyli aralıda yer hazırlamaq məqsədəmüvafiqdir. Həmin ərazi otlardan təmizlənməli, sonra isə yandırılacaq odun parçaları üçün bel vasitəsi ilə çala qazılmalıdır. Tonqal ətrafındakı otları 0,5-1 metr radiusunda təmizləmək lazımdır. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir.

Tonqal heç zaman nəzarətsiz qalmamalıdır. Ehtiyatda olan yanacaq məhlulu tonqaldan 3-5 metr aralıda saxlanmalıdır. Əgər ehtiyac yoxdursa, çox hündür tonqal qalamaq lazım deyil. Diqqət yetirilməlidir ki, tonqaldan kənara az qığılcım düşsün. Xüsusən də küləkli havada bu, çox təhlükəlidir. Tonqalı yandırarkən küləyin gücünə və istiqamətinə uyğun tonqal yandırmaq lazımdır. Çünki kənara sıçrayan qığılcımlar otun və yarpaqların alışmasına səbəb ola bilər. Çalışmaq lazımdır ki, yarpaqları qurumuş budaqlardan istifadə edilməsin, çünki bu zaman qırağa təkcə qığılcımlar deyil, yanan yarpaqlar da səpələnə bilər. Ərazini tərk edən zaman tonqalı tam söndürməli, üzərinə su atmalı, sonra isə üstü torpaqla örtülməlidir. Əgər tonqalın içində közərən kömür parçaları olarsa, tonqala yenə də su tökülməlidir. Söndürülmüş tonqaldan tüstü və ya buxar çıxarsa, tələsik oradan aralanıb getmək olmaz. Gedərkən tam əmin olmaq lazımdır ki, tonqal tamamilə sönüb və sonradan alışma ehtimalı yoxdur.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməli, meşənin ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Meşədən və ya meşə zolağından keçən avtomobil və dəmir yollarının hər iki tərəfi 10 metr məsafədə meşə tör-töküntülərindən, yanar materiallardan təmizlənməli və yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir.

Meşələrin yanğın təhlükəsizliyini təmin etmək məqsədilə əhatəli təbliğat işi aparılmalı, yanğına qarşı plakatlardan, reklamlardan geniş istifadə olunmalıdır. Meşə ilə əlaqəsi olan bütün müəssisələrdə, təşkilatlarda, idarələrdə, əhali arasında, məktəblərdə yanğın təhlükəsizliyi ilə bağlı izahat işlərinə geniş yer verilməlidir. Meşə ilə həmsərhəd olan yaylaqlarda çobanlar, ov mövsümü zamanı ovçular odla ehtiyatlı olmalı və yanğın baş verərsə onun söndürülməsi qaydaları barədə maarifləndirilməlidirlər.

### MEŞƏDƏ YANĞIN BAŞ VERƏRSƏ...

Meşə yanğınları ilə əlaqədar əhali bilməlidir ki, insanlar üçün meşə yanğınının təhlükəsi nəinki alovun birbaşa təsirindən, eyni zamanda atmosferdəki güclü oksigen çatışmazlığından, dəm qazının və digər qatışıqların artmasından yaranan zəhərlənmələrdən ibarətdir. Bunları nəzərə alaraq meşə yanğınları zamanı birinci növbədə insanlar və kənd təsərrüfatı heyvanları təhlükəli zonadan çıxarılmalı, yanğın yerinə giriş məhdudlaşdırılmalı, yanğının söndürülməsində təhlükəsizlik təmin edilməlidir. Yanğın ərazisində işləyənlər xüsusi geyimlərdən, kaskalardan, tüstü əleyhinə maskalardan və əleyhqazlardan istifadə etməlidirlər. Meşə yanğınlarının söndürülməsində iştirak edənlər alovdan qorunmaq üçün mümkün sığınacaqlar barədə, həmçinin yanğın ərazisindən təxliyə yolları, ərazinin oriyentasiyası haqqında da məlumatlara malik olmalıdırlar. Yanğını söndürərkən istifadə olunan texnika ilə ehtiyatlı davranılmalıdır ki, ona zərər dəyməsin. Xüsusi aparat və texnikadan yalnız bu sahədə peşəkarlığı olan adamlar istifadə edə bilər. Meşə yanğınlarını söndürərkən ərazini yaxşı tanıyan adamlardan, həmçinin alovun yayılma istiqamətini izləyən müşahidəçidən istifadə edilməlidir. Yanğın ərazisindən keçmə zərurəti yarandıqda tənəffüs yollarının zədələnməməsi üçün nəfəsi tutmaq lazımdır.

Meşə yanğınları zamanı təhlükəli zonadan uzaqlaşarkən tüstüdən və dəm qazından zəhərlənməyə məruz qalmamaq üçün külək istiqamətində deyil, əksinə hərəkət etmək lazımdır.

Bir daha xatırladırıq ki, hər bir vətəndaş yadda saxlamalıdır ki, meşə yanğınları ağacları, kolları - bütün yaşıllığı məhv edir, ekologiyaya ciddi ziyan vurur. Yanğın nəticəsində meşənin bir sıra xüsusiyyətləri itir, fauna məhv olur, yaşayış məntəqələri ziyan çəkir. Bəzi hallarda isə meşə yanğınları insan itkisi ilə nəticələnir, kənd təsərrüfatı heyvanları üçün ciddi təhlükə yaranır. Bunları nəzərə alaraq bir daha vurğulayırıq ki, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına riayət etməklə biz ölkəmizin iqtisadiyyatının inkişafına, vətəndaşlarımızın sağlamlığına xidmət edirik.

***Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***


# Elanlar

DƏDRX-nin 15 saylı Ərazi İdarəsi tərəfindən Tovuz rayonu Alakol kənd sakini Hüseyinova Gülnarə Ələs qızının adına verilmiş özünə məxsus evin çıxarışı itdiyi üçün etibarsız sayılır.

* * *

Ləğv olunmuş DT və XK Tovuz rayon şöbəsi tərəfindən mərhum Məmmədov Qəhrəman Məhəmməd oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair JN-265 saylı Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

DƏDRX-nin15 Sayli Ərazi İdarəsi tərəfindən Alıyeva Şəhla Həsən qızının adina 20.02.2018-ci ildə verilmiş qeydiyyat nömrəsi 261800980 olan çıxarış itdiyi üçün etibarsız sayılır.

* * *

Tovuz rayonu DTİ və MHQİ tərəfindən mərhum Nağıyev Yaqub İsmayıl oğlunun adina verilmiş 143 saylı qeydiyat vəsiqəsi etibatsiz sayılır.



**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
***Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,***
***Telefon: (022)315-35-23***
***tovuz.1929@mail.ru***



***Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.***



***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.***
***Sifariş.765 Tiraj: 1500.***